Funded by the European Union

"Gələcək üçün Peşə Təhsili və Təlimi: Azərbaycanda Qabaqcıl Peşə Təhsili Mərkəzlərinin yaradılmasına dəstək" layihəsi



İcra müddəti: 26.08.2020 - 26.08.2024

ŞT ölkələri:
Azerbaijan

Aİ-nin maliyyə yardımı: € 5 600 000

Ümumi büdcə: € 5 600 000

İcraçı təşkilat(lar):
UNITED NATIONS DEVELOPMENT PROGRAMME

Sosial media hesablarına keçidlər:
facebook.com/UNDPAzerbaijan

Internet səhifəsi: az.undp.org/content/azerbaijan/en/home.html

Layihənin təsviri:

Layihənin əsas məqsədi əmək bazarının mövcud ehtiyaclarına uyğun xüsusi bacarıqlara əsaslanan tədris üçün peşə təhsili müəssisələrini müasirləşdirməkdə Azərbaycan hökumətinə dəstək olmaqdır.
Layihə aşağıdakı üç sütun ətrafında qurulub:
• 1: Seçilmiş Peşə Təhsili və Təlimi (PTT) müəssisələrində yeniliklərin tətbiqi
• 2: Seçilmiş PTT müəssisələrində infrastruktur və avadanlıqların modernləşdirilməsi
• 3: Azərbaycanda PTT təminatçıları potensialının artırılması
Layihə eyni zamanda yuxarıda qeyd edilən bəndlərin icrası üçün üfüqi fəaliyyətlərin həyata keçirilməsində Peşə Təhsili üzrə Dövlət Agentliyinə dəstək olacaqdır. Buraya peşə təhsili mərkəzləri üçün rəqabətli maliyyələşdirmə mexanizmini (kiçik qrantlar) inkişaf etdirmək və sınaqdan keçirmək, Azərbaycanda PTT islahatları ilə əlaqəli kommunikasiya strategiyası hazırlamaq və icra etmək, eləcə də gənclərin peşə təhsilinə cəlb edilməsi üçün pilot tədbirlərin təşkili aiddir.

Gözlənilən nəticələr:

- Peşə təhsili mərkəzlərinin əhatəli müasirləşdirilməsinin və strateji inkişafının təmin edilməsi;
- İnnovasiyaları və ən yaxşı təcrübəni tətbiq etməklə, milli səviyyədə peşə təhsili islahatlarına dəstək;
- İnfrastruktur və avadanlığın təmin edilməsi və COVİD-19-un mənfi təsirlərinin qarşısının alınması;
- İctimai məlumatlılığın artırılması, Azərbaycanda bütün PTT mərkəzlərinin imkanlarının artırılmasına və təşviqinə dəstək;
- Peşə təhsili qurumları üçün rəqabətə davamlı maliyyə mexanizmlərinin (kiçik qrantlar) inkişaf etdirilməsi və sınaqdan keçirilməsi;
- Gənclərin peşə təhsili sahəsinə cəlbi üçün kommunikasiya strategiyasının və sınaq tədbirlərin inkişafına və icrasına dəstək.